# Aqrar sektor Qəbələdə aparıcı sahədir

## Tütünçülüyün inkişafı həm də yeni iş yerləri deməkdir

Prezident İlham Əliyevin 10 avqust 2017-ci il tarixli Sərəncamına əsasən qəbul edilmiş



"Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"ı rayonumuzda uğurla icra olunur.

Kənd təsərrüfatında böyük potensiala malik, iqtisadi cəhətdən səmərəli olan tütünçülük həm də yeni iş yerlərinin açılmasına şərait yaradıb. Hazırda rayonda tütün əkini və becərilməsi işlərinə 200-dən çox işçi cəlb edilib.

Artıq dördüncü ildir ki, bir sıra yaşayış məntəqələrində iqtisadi cəhətdən gəlirli sahə hesab olunan tütün becərilir.

Hazırda sahələrdə becərmə işləri görülür. Tütünçülərimiz tərəfindən suvarma vaxtlı-vaxtında həyata keçirilir, bütün aqrotexniki qaydalara əməl olunur.

Xatırladaq ki, ötən il fermerlərimiz 75 hektar sahədə yetişdirdikləri tütündən 99 tona yaxın məhsul istehsal ediblər.

**"Qəbələ"**

## Epizootiya əleyhinə profilaktik tədbirlər

***Rayonumuzda "Epizootiya əleyhinə profilaktika və diaqnostika tədbirlər planına" uyğun xüsusi təhlükəli xəstəliklərə qarşı profilaktik peyvəndləmə, diaqnostik müayinə, dezinfeksiya, müalicə tədbirləri və təlim işləri davam etdirilir. Tədbirlər və təlimlər rayon baytarlıq idarəsi tərəfindən aparılır.***

Aparılan epizootik tədbirlərlə yanaşı, heyvan sahibləri arasında maarifləndirmə və təlim işləri də həyata keçirilir.

İlin əvvəlindən aparılan tədbirlər zamanı 46 min 830 baş iribuynuzlu, 126 min 640 baş xırdabuynuzlu, 991 baş təkdırnaqlı heyvanda və 1072 baş donuzda qarayara, 3939 baş sahibli itdə quduzluq, 45 min 494 baş iribuynuzlu və 156 min 261 baş xırdabuynuzlu heyvanda dabaq, 2406 baş iribuynuzlu heyvanda leptospiroz, 70 min 920 baş xırdabuynuzlu heyvanda çiçək, 480 baş donuzda klassik taun, 42 min 126 baş iribuynuzluda nodulyar dermatit, 8088 baş xırdabuynuzlu və 242 baş xırdabuynuzlu heyvanda bruselyoz xəstəliklərinə qarşı peyvənd aparılıb. Eləcə də, bu dövr ərzində 582 min 560 baş ("H" ştammı ilə) quş və 660 min 615 baş cücədə ("La-Sota" ştammı ilə) nyukasl xəstəliklərinə qarşı peyvəndləmə tədbirləri yerinə yetirilib.

Baytarlıq idarəsi ilin əvvəlindən indiyə kimi baytarlıq-sanitariya işlərinin əsasını təşkil edən



dezinfeksiya işlərini də gücləndirib. Belə ki, baytarlıq xidməti tərəfindən rayon ərazisində 35 min 400 kvadratmetr sahədə profilaktik dezinfeksiya işləri görülüb. Ümumiyyətlə, rayonun təsərrüfatlarında heyvanlar arasında aparılan peyvəndləmə tədbirləri "soyuq zəncir" rejiminə riayət olunmaqla həyata keçirilir. Həmçinin həssas heyvanlar arasında bruselyoz xəstəliyini vaxtında aşkar etmək məqsədilə 1356 baş iribuynuzlu və 154 baş xırdabuynuzlu heyvandan qan alınaraq seroloji müayinə edilib, eləcə də, 300 baş iribuynuzlu heyvanda vərəm, 190 baş atda manqoya görə diaqnostik müayinə aparılıb.

İdarə ilin əvvəlindən indiyədək 40 toyuqda askaridioza, 50 baş iribuynuzlu, 100 baş xırdabuynuzlu heyvanda diktikalyoza, 50 baş iribuynuzlu, 152 baş xırdabuynuzlu heyvanda fassiolyoza, 152 baş xırdabuynuzlu heyvanda monezioza görə koproloji müayinələr aparıb. Heyvanlar arasında xəstəlik aşkar olunmayıb.

**"Qəbələ"**

## Buğda sahələrində orta məhsuldarlıq 33 sentnerdir

Qəbələ rayonunun təsərrüfatlarında taxıl biçini kampaniyası yekunlaşmaq üzrədir. Ca-



ri mövsümdə rayonda 20 min 190 hektar taxıl sahəsinin məhsulunun biçilməsi nəzərdə tutulur. Bu günədək 19 min 600 hektar zəminin məhsulu biçilib, 64 min 284 ton taxıl istehsal olunub. Hər hektardan orta məhsuldarlıq 32,8 sentnerdir.

Müxbirimizə məlumat verən Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Elimdar Şərifov bildirib ki, tədarük edilən taxılın 14 min 124 tonu arpa, 50 min 160 tonu isə buğdadır. Arpa sahələrində hər hektardan orta məhsuldarlıq 32,1 sentner, buğda zəmilərində isə 33 sentnerdir. Rayonda hələlik biçilməmiş 600 hektar buğda sahəsi qalır. Arpa sahələrində biçin isə tam başa çatıb.

Qəbələli fermerlər ötənilki mövsümdə 20 min 100 hektar taxıl sahəsindən 64 min 464 ton məhsul tədarük ediblər. Hər hektardan isə orta hesabla 32,2 sentner məhsul götürülüb.

**"Qəbələ"**

## Barama istehsalı artıb

Qəbələ rayonunda istehsalçılardan barama tədarükü başa çatıb. Kümçülər builki mövsümdə 15 ton 423 kiloqram yaş barama istehsal ediblər.

Bildirilib ki, cari mövsümdə barama yetişdirmək üçün 102 kümçü ilə müqavilə bağlanılıb, onlara 500 qutu, yəni 9,5 kiloqram ipəkqurdu paylanılıb.



Barama istehsalı ötən illə müqayisədə 6,3 ton artıb.

Bu barədə müxbirimizə Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib.

Ötən il isə rayonun kümçüləri 236 qutu ipəkqurdundan 9,1 ton yaş barama əldə etmişdilər.

**"Qəbələ"**

## Heyvandarlarımız ilin ötən dövrünü uğurla başa vurublar

Qəbələ rayonunda heyvanarlıqla məşğul olan fermerlər və fiziki şəxslər cari ilin ilk yarısında uğurlu nəticələrə nail olublar. Belə ki, heyvandarlıq məhsullarının istehsalı üzrə bütün göstəricilər ötən ilin müvafiq dövrü ilə müqayisədə artıb.

Rayon statistika idarəsinin məlumatına görə süd istehsalı 833 ton çoxalaraq 20675.2 ton, yun istehsalı 2 ton artaraq 312.5 ton olub.

Yarım ildə yumurta istehsalında artım 0,01 faiz olub və 11480 min ədədə çatıb.

Qeyd edək ki, rayonda kənd təsərrüfatının aparıcı sahələrindən olan heyvandarlıqda qazanılan uğurlara səbəb vaxtında kifayət qədər yem ehtiyatının yaradılmasıdır.

**"Qəbələ"**

## Kənd təsərrüfatı məhsullarının yığımına başlanılıb

Qəbələ Rayon Statistika İdarəsindən müxbirimizə bildiriblər ki, torpaq mülkiyyətçiləri bu il 3379.9 hektarda yazlıq əkin həyata keçiriblər. Bunun 802 hektarı dənli və dənli paxlalılar, 75 hektarı tütün, 339.5 hektarı birillik otlar, 434 hektarı qarğıdalı, 158 hektarı dən üçün qarğıdalı, 449 hektarı təzə yonca, 192.4 hektarı şəkər çuğunduru, 520 hektarı kartof, 408 hektarı tərəvəz, 2 hektarı isə bostan bitkiləridir.

Fermerlərimiz tərəfindən bu günədək 810 ton kartof, 2279.9 ton tərəvəz, 396.1 ton meyvə yığılıb. Hər hektarın məhsuldarlığı kartof sahələrində 81 sentner, tərə-



vəz bitkiləri üzrə 96.8 sentnerdir.

Hazırda kəndli fermerlər tərəvəz və bostan məhsullarının yığımını, yonca biçinini davam etdirirlər.

**"Qəbələ"**